# GÖYÇAYDA QARŞIYA QOYULMUŞ VƏZİFƏLƏR ƏZMKAR FƏALİYYƏTLƏ HƏLL OLUNUR

**(əvvəli ötən sayımızda)**

**Hesabat dövründə rayon əhalisinə kənd təsərrüfatı məhsulları satışında lazımi qayda yaradılması üçün tədbirlər davam etdirilmiş, əhalinin rahatlığını təmin etmək üçün şəhərin M.Hüseynzadə küçəsindəki ”Təzə bazar”-a bitişik ərazidə kənd təsərrüfatı məhsullarının pərakəndə satışını təşkil etmək məqsədi ilə talvarlar quraşdırılmış, əraziyə asfalt örtüyü salınmışdır. Burada kənd təsərrüfatı məhsullarını satanlar üçün normal şərait yaradılmış, bazarın xidmətindən istifadə edənlərin nəqliyyat vasitələrinin parklanması üçün yerlər ayrılmışdır.**

Hesabat dövründə ”Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nda Göyçay rayonu üzrə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi istiqamətində müəyyən tədbirlər görülmüşdür. Emal sənayesinin daha da inkişaf etdirilməsi məqsədilə ”Az-Nar” QSC-də şərab sexində quraşdırılmaq üçün avadanlıqlar alınmışdır.

Asiya İnkişaf Bankının krediti hesabına maliyyələşən Göyçay şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidənqurulma layihəsi çərçivəsində rayonun Şəhadət kəndində şəhərin çirkab sularını təmizləyən qurğu kompleksinin tikintisi davam etdirilmişdir və gün ərzində 10 min kub m. çirkab su təmizləmə gücü olan kompleksinin tikintisində son tamamlanma işləri görülür.

Rayon ərazisində yol infrastrukturunun təkmilləşdirilməsi, yerli əhəmiyyətli kəndlərarası avtomobil yollarının yenidən qurulması və əsaslı təmirinin davam etdirilməsi istiqamətində əməli tədbirlər davam etdirilir. Hesbat dövründə ümumi uzunluğu 23 km olan Cəyirli-Alpout avtomobil yolunun tikintisinə başlanılıb...

Yığıncaqda qeyd olunmuşdur ki, 2 iyun 2018-ci il tarixdə Göyçay çayından keçən güclü sel daşqını Bakı-Şamaxı-Yevlax magistral avtombil yolunun 217-ci km-də Göyçay çayı üzərindəki körpünün sol kənar dayağını mühafizə edən dəmir-beton konstruksiyaları və körpüyə yanaşma yolunu tamamilə dağıtmış və rayonun 55 kənd yaşayılş məntəqəsindən 39-nun rayon mərkəzi ilə əlaqəsi kəsilmişir.

Baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədi ilə Azərbyacan Respublikası Prezidentinin 7 iyul 2018-ci il tarixli Sərəncamı ilə ayrılmış vəsait hesabına qısa müddət ərzində körpünün bərpası işləri aparılmış və 22 iyun 2018-ci il tarixdə körpü nəqliyyat vasitələrinin və piyadaların hərəkəti üçün açılmışdır.



M.Səlimzadə yığıncaqda rayon əhalisinin arzu və istəklərini ifadə edərək demişdir:

- Göyçay rayonu, eləcə də respublikamız üçün böyük strateji əhəmiyyəti olan körpünün qısa müddət ərzində bərpa edilməsini İlham Əliyev cənablarının göyçaylılara göstərdiyi böyük diqqət və qayğı kimi qiymətləndirir, bütün göyçaylılar adından dərin minnətdarlığımız və təşəkkürümüzü bildirməklə ölkə Prezidentini əmin edirik ki, rayon ictimaiyyəti dövlətimizin daim qüdrətlənməsi və xalqımızın tərəqqisi üçün bundan sonra da daha əzmlə çalışacaqdır...

Hesabat dövründə qəzalı vəziyyətdə olan məktəblər üçün yeni məktəb binalarının tikintisi istiqamətində işlər davam etdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin ”Göyçay, Kürdəmir, Ucar və Zərdab rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında” 16 mart 2018-ci il tarixli sərəncamına əsasən cari ildə rayonun Veysəlli kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması üçün 230 min manat vəsait ayrılmış və tikintiyə başlamaq üçün torpaq sahəsinin seçilmişdir. Rayonun Alıkənd kəndində quraşdırılan modul tipli 40 şagird yerlik ibtidai məktəb binasında son tamamlanma işləri aparılır və ölkə prezidentinin 24 fevral 2018-ci il tarixli Sərəncamı əsasən yeni məktəb binasının qazlaşdırılması üçün 17,9 min manat əlavə vəsait ayrılıb. Yerli iş adamlarının vəsaiti hesabına rayonun Potu kənd tam orta məktəbinin əsaslı təmiri işlərinə başlanılıb.

Yığıncaqda daha sonra qeyd olunmuşdur ki, ölkə Prezidentinin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarsının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında verilən tapşırıqlara müvafiq olaraq cari ildə rayon iqtisadiyyatının yüksəldilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilməlidir. İlk növbədə rayonun sənaye potensialından, emal müəssisələrinin layihə üzrə istehsal güclərindən tam istifadə edilməsi üçün tədbirlər görülməli, emal müəssisələrində yeni istehsal sahələrinin yaradılması, müasir bazar tələblərinə uyğun rəqabət qabiliyyətli və ixrac yönümlü məhsul istehsalı diqqət mərkəzində saxlanılmalıdır.

Rayonun kənd təsərrüfatının mövcud imkanlarından daha dolğun istifadə edilməlidir. Baramaçılığın inkişafına xüsusi diqqət yetirilməli, cari ildə barama qurdlarının becərilməsində yol verilmiş nöqsan və çatışmazlıqların təkrar olunmaması üçün indidən əməli tədbirlər görülməlidir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 27 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş ”Azərbaycan Respubliakasında baramaçılığın və ipəkçiliyin inkişaf etdirilməsinə dair 2018-2025-ci illər üçün Dövlət Proqramı” respublikada baramaçılığın və ipəkçiliyin inkişaf etdirilməsinə, bu sahədə ixrac potensialının artırılmasına və kənd əhalisinin məşğulluğunun təmin edilməsinə imkan verəcəkdir.



Dövlət Proqramına əsasən 2025-ci ilədək yaş barama istehsalının həcminin 6 min tona çatdırılması, həmçinin respublikanın 7 rayonunda o cümlədən Göyçay rayonunda tədarük olunmuş baramanın ilkin emalı üçün barama qəbulu və emalı məntəqəsi yaradılacaqdır. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etməklə yaxın 3-5 ildə rayonda barama istehsalının artırılması üçün əməli tədbirlər görülməlidir.



Qarşıya qoyulmuş hədəflərə çatmaq üçün ilk növbədə baramaçılığın yem bazası yaradılmalı, son 2 ildə rayonun kəndlərində əkilmiş 194,6 min ədəd, o cümlədən Çin Xalq Respublikasından gətirilmiş 138 min ədəd tut tinglərinə lazımi aqrotexniki qulluq göstərilməli və onların qorunması təmin olunmalıdır. Əsas ehtiyyat mənbələrindən biri də kəndlərdə mövcud olan tut ağaclarıdır. Lakin uzun müddət bu ağaclardan baramaçılıq məqsədləri ilə istifadə edilməməsi onların məhsuldarlığını və səmərəliliyini aşağı salmışdır. Yerli icra və bələdiyyə orqanları həmin ağacların qısa müddət ərzində aqrotexniki qaydada budanmasını təşkil etməli, həmçinin yerli məhsuldar tut tinglərini əkməklə kəndlərdə baramaçılığın möhkəm yem bazasını yaratmalıdırlar.

Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılması üçün ciddi tədbirlər görülməlidir. İlk növbədə taxılçılığın inkişafına diqqət yetirilməli, taxıl istehsalının onun məhsuldarlığının yüksəldilməsi hesabına artırılması, sahələrin aqrotexniki qaydada becərilməsi və mineral gübrələrin verilməsi, alaq otlarına qarşı mübarizə tədbirlərinin yerinə yetirilməsi təmin olunmaldır. Məlum olduğu kimi Göyçay torpaq imkanları məhdud olan rayonlardan biridir və kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılması üçün mütərəqqi texnologiyalar tətbiq edilməlidir. Torpaqlardan səmərəli şəkildə istifadə də indi qarşıda duran əsas vəzifələrdən biridir.

**Göründüyü kimi, Göyçay rayonunda yerli icra orqanlarının fəaliyyəti qazanılan uğurların daha da möhkəmlənməsinin təmin edilməsi üçün bütün istiqamətlər üzrə səfərbər olunur. Rayon rəhbərliyi qarşıya qoyulmuş vəzifələrin, perspektiv tədbirlərin uğurlu həlli üçün maksimum işgüzarlıq əzmindədir.**

**Məzahir ƏHMƏDZADƏ**